# "Hədəfim şagirdlərimi Vətənimə layiqli vətəndaş olaraq yetişdirməkdir"

> "Müəllim kimi fəaliyyətə başladığım ilk günlər əsas hədəfim şagirdlərimlə düzgün münasibət qurmağı bacarmaq idi. Çünki mənə görə hər şey buradan başlayır. Düşünürəm, şagirdlərim əvvəl məni müəllim kimi sevməlidirlər ki, tədris etdiyim fənni də maraqla öyrənsinlər". Bu fikirləri "Azərbaycan müəllimi"nə müsahibəsində Xızı rayonu Fındığan kənd tam orta məktəbinin ibtidai sinif müəllimi Fidan Cəfərli deyib.

Müsahibimiz 2000-ci ildə Sumqayıt şəhərində anadan olub. Orta təhsilini Sumqayıt şəhəri 27 nömrəli tam orta məktəbdə alıb. Sumqayıt Dövlət Universitetinin Filologiya fakültəsini müvəffəqiyyətlə başa vurub.

2023-cü ildə müddətli müqavilə ilə Xızı rayonu Yeni Yaşma kənd tam orta məktəbində müəllim işləməyə başlayan gənc bir il sonra müəllimlərin işə qəbulu imtahanında 83.75 bal toplayıb və beləliklə, hazırda işlədiyi məktəbə daimi əsaslarla işə qəbul olub. Fidan Cəfərli məktəbdə ibtidai sinif müəllimi kimi fəaliyyətinə davam edir. Sumqayıt şəhərində yaşadığı üçün həftənin beş günü Xızı rayonuna gedib-qayıdır. İşini sevdiyi və məktəbdə çox gözəl qarşılandığı üçün yolun yorğunluğunu, çətinliyini unudur.

**İlk illərin təəssüratı**

Gənc müəllim hesab edir ki, pedaqoji fəaliyyətinin ilk illərində Fındığan kənd tam orta məktəbində təcrübə qazanması onun üçün yaxşı fürsət olub: "Bunun əsas səbəbi həm ilk gündən məktəbin direktoru, direktor müavinləri başda olmaqla bütün kollektivin mənə dəstək olması, həm də şagird və valideynlərin böyük sevgi və inamla yanaşması olub".

F.Cəfərli bildirir ki, tədrisə başladığı ilk vaxtlar hər gənc müəllim kimi onu da narahat edən bir sıra məsələlər olub: "Məsələn, dərsə marağı aşağı olan şagirdlərimə fənnimi necə sevdirə, valideynlərlə münasibətimi necə qura bilərəm? Dərsləri hansı metodlarla tədris etsəm, daha maraqlı və əyləncəli olar? Zamanla şagirdlərimin mənə olan sevgisi və inamı, onların gözlərində gördüyüm öyrənmə həvəsi, təcrübəli müəllimlərimizin və mənə dəstək göstərən valideynlər sayəsində bu çətinliklərin öhdəsindən gəldim".



> "Dərsdə ən zəif şagirdin belə fəal olmasına çalışıram"

Həmsöhbətimiz əlavə edir ki, dərsini təşkil edərkən ən çox şagirdlərinin sıxılmamasına, əksinə, dərs prosesində ən zəif şagirdin belə fəal olmasına çalışır: "Bunun üçün dərs prosesini bütün şagirdlərimin marağını cəlb edəcək şəkildə təşkil etməyə səy göstərirəm".

**Məsuliyyətli və şərəfli müəllimlik**

Fındığan kənd tam orta məktəbi haqqında danışan gənc müəllim diqqətə çatdırır ki, işlədiyi tədris ocağında 92 şagird və 22 müəllim var.

Müəllim peşəsinin şərəfli, eyni zamanda məsuliyyətli və çətin olduğunu vurğulayan F.Cəfərli deyir: "Düşünürəm ki, tədris prosesini çətinləşdirən problemlərdən biri bəzi hallarda müəllim-valideyn, şagird-valideyn münasibətinin düzgün qurulmamasıdır. Tədris prosesi boyunca müəllim və valideyn birgə hərəkət etməlidir".

Onun fikrincə, dəcəl şagirdlərlə işləmək çətin olsa da, onları ələ almaq mümkündür: "Mən bir ibtidai sinif müəllimi olaraq dərs boyu şagirdlərimə həm valideyn, həm müəllim olmağa çalışıram. Müəllim kimi onları lazımi bilik və bacarıqla təmin edir, yeri gəldikdə, ana kimi nəvaziş göstərib problemlərini həll etməyə çalışıram. Lazım olduqda isə çətinlik yaşayan şagirdin valideyni ilə birlikdə hərəkət planı hazırlayırıq. Bütün əziyyətli tərəflərinə baxmayaraq, bu məsuliyyətli və şərəfli peşənin nümayəndəsi olduğum üçün qürur duyuram".

Gənc müəllim ən böyük hədəfini də "Azərbaycan müəllimi" ilə bölüşüb: "Hədəfim şagirdlərimi Vətənimə, millətimə layiqli, yenilik yaradan və ölkəmizi hər sahədə dünyada tanıtmağa can atan Azərbaycan vətəndaşı olaraq yetişdirməkdir".

**Lamiyyə ƏLİMƏRDANOVA,**
*Abşeron-Xızı və Quba-Xaçmaz üzrə regional təmsilçi*

Azərbaycan müəllimi.- 2025.- 8 fevral, №5.- S.8.